Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən ermənisilli şəxslərin məhkəməsi davam etdirilib

Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, Davit Babayan, Lyova Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə məhkəmə prosesinin baxış iclası fevralın 14-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, habelə müdafiələri üçün vəkillərlə təmin olunub.

Məhkəmənin baxış iclasında zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak ediblər.

İclasın əvvəlində təqsirləndirilən şəxslər Arayik Harutyunyanın və Erik Qazaryanın vəkilləri konfidensial görüş üçün şərait yaradılmasını məhkəmədən xahiş edib.

Məhkəmə vəsatətləri təmin edib və konfidensial görüş üçün fasilə elan olunub.

Fasilədən sonra məhkəmə prosesi dövlət ittihamını müdafiə edən prokurorlar tərəfindən cinayət işi üzrə ittiham aktının nəticəvi hissəsinin elanı ilə davam etdirilib.

Budəfəki məhkəmə iclasında ittiham aktının Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində əsir düşmüş və girov götürülmüş Azərbaycan vətəndaşlarına verilmiş işgəncələr, insanların zorakılıqla yoxa çıxarılması, Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən lokal xarakterli antiterror əməliyyatlarının başlanılmasını qaçılmaz edən hallar, habelə təqsirləndirilən şəxslərin tutulması və təcavüzkar müharibəyə Ermənistan tərəfindən muzdlu döyüşçülərin cəlb edilməsi faktlarına dair epizodlar elan edilib.

Əvvəlcə dövlət ittihamçısı Vüsal Abdullayev ittiham aktına əsasən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra Azərbaycan ərazisində törədilən cinayət faktları üzrə epizodları, o cümlədən 2023-cü il sentyabrın 19-da cinayətkar təşkilat tərəfindən artilleriya qurğuları, minaatanlar və digər silahlardan atəşlər açılmaqla başlanılmış növbəti hücuma cavab olaraq ermənisilli mülki şəxslər və mülki obyektlər hədəfə alınmadan Azərbaycan Respublikasının suveren ərazilərindən terrorçulardan təmizlənməsi və dövlət suverenliyinin bərpa edilməsi məqsədilə Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən labüdlüyü qaçılmaz olmaqla lokal xarakterli antiterror əməliyyatlarının aparılmasını qeyd edib.

Belə ki, 2023-cü il sentyabrın 19-da səhər saatlarından etibarən üç istiqamətdən işğaldan azad edilmiş geniş bərpa-quruculuq işləri aparılan ərazilər, o cümlədən Şuşa şəhəri müxtəlif növ minaatanlar, toplar və artilleriya qurğuları ilə atəşə tutulub. Atılan mərmilərdən birinin həmin tarixdə saat 16 radələrində Şuşa şəhəri ərazisində "Şuşa şəhəri Dövlət Qoruğu" publik hüquqi şəxsin mütəxəssisi Fərhadov Vidadi Aydın oğlunun yanına düşərək partlaması nəticəsində sonuncu qəsdən öldürülüb.

Bundan başqa, 2023-cü il sentyabrın 19-da saat 03:45 radələrində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşı Quliyev Fərhad Hüseynağa oğlu və sürücü Sadıxov Samir Sabiroviçin idarə etdiyi yol çəkilişi üçün nəzərdə tutulan texnika ilə Əhmədbəyli-Füzuli-Şuşa yolunun ərazisində təmir-bərpa işləri apararkən tank əleyhinə minalardan birinin partlayışına məruz qalaraq qəsdən öldürülüblər.

Həmin gün Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşlarının minaya düşmələri barədə məlumat alıb hadisə yerinə yola düşən Daxili İşlər Nazirliyinin Çevik Polis Alayının əməkdaşları həmin yolda birinci partlayışın baş verdiyi yerdən 100 metr məsafədə növbəti digər tank əleyhinə minalardan birinin partlayışına məruz qalıb, nəticədə avtomobilin sürücüsü həmin Alayın polis nəfərləri Camalzadə Asim Knyaz oğlu, Zamanov Xəzər Azər oğlu, Mahmudov Seymur Elsevər oğlu və Şirinov Ramil Arif oğlu sağlamlığa ağır zərər vurmaya aid xəsarətlər alaraq hadisə yerində qəsdən öldürülüblər.

Bildirilib ki, keçirilən lokal xarakterli antiterror əməliyyatları nəticəsində 24 saatdan da az müddətdə Azərbaycan Respublikasının suveren əraziləri olan Xankəndi şəhəri, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Kəlbəcər, Tərtər rayonları 2023-cü il sentyabrın 20-də işğaldan tamamilə azad edilib, bu zaman ümumilikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 205 nəfər hərbi qulluqçusu qəsdən öldürülüb, 1004 nəfər hərbi qulluqçusuna müxtəlif dərəcəli bədən xəsarətləri yetirilib.

Lokal xarakterli antiterror əməliyyatları nəticəsində Harutyunyan Arayik Vladimiri (Vladimiroviç) 2023-cü il oktyabrın 3-də yaşadığı Xankəndi şəhərində yerləşən fərdi yaşayış evində tərk-silah edilməklə saxlanılıb və yaşadığı evin həyətyanı sahəsində aparılmış axtarış zamanı oradan "AK-74" markalı avtomat silahları, döyüş sursatı hesab edilən 5 min 25 ədəd patron və digər silah və döyüş sursatı aşkar edilərək götürülüb.

Sahakyan Bako Sahaki həmin tarixdə Xankəndi şəhəri ərazisində tərk-silah edilməklə saxlanılıb və yaşadığı fərdi yaşayış evində axtarış keçirilən zaman oradan qəlpəli "F-1" əl qumbarasının 14 ədəd gövdə hissəsi, atəşə yararlı 2 min 611 ədəd patron və digər silah və döyüş sursatı aşkar edilərək götürülüb.

İşxanyan Davit Rubeni həmin tarixdə Xankəndi şəhəri ərazisində tərk-silah edilməklə saxlanılıb və qanunsuz sahibləndiyi, Xankəndi şəhəri ərazisində yerləşən mehmanxanada axtarış keçirilən zaman oradan "AK-74, "AKS-74", "AKS-74U" və sair konstruksiyalı avtomatik silahlardan istifadə edilmək üçün nəzərdə tutulan 481 ədəd patron və həmin avtomatik silahların komplekt hissəsi olan 4 ədəd sandıqça aşkar edilərək götürülüb.

Manukyan Davit Azati 2023-cü il sentyabrın 27-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Laçın sərhəd-buraxılış məntəqəsində saxlanılıb və yaşadığı ünvanda axtarış keçirilən zaman oradan "AK-74" markalı avtomat silahların komplekt hissəsi olan 3 ədəd sandıqça, "CZ 75 Compact" modelli 1 ədəd tapança və digər silah və döyüş sursatı aşkar edilərək götürülüb.

Babayan Davit Klimi 2023-cü il sentyabrın 28-də Xankəndi şəhəri ərazisində, Mnatsakanyan Lyova Henrixi 2023-cü il sentyabrın 29-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Laçın sərhəd-buraxılış məntəqəsində, Qukasyan Arkadi Arşaviri 2023-cü il oktyabrın 3-də Xankəndi şəhəri ərazisində tərk-silah edilməklə saxlanılıblar.

Həmçinin Paşayan Melikset Vladimiri, Martirosyan Qarik Qriqori, Stepanyan Qurqen Homeri və Allahverdiyan Davit Nelsoni 2023-cü il sentyabrın 20-də Xocalı rayonunun Dağdağan kəndi ərazisində, Babayan Madat Arakeli 2023-cü il sentyabrın 20-də Ağdərə rayonunun Qozlukörpü kəndi ərazisində, Balayan Levon Romiki 2023-cü il sentyabrın 20-də Şuşa şəhəri ərazisi yaxınlığında, Beqlaryan Vasili İvani 2023-cü il sentyabrın 26-da Kəlbəcər rayonu ərazisində, Qazaryan Erik Roberti 2023-cü il sentyabrın 27-də Ağdərə rayonunun Həsənriz kəndi ərazisində tərk-silah edilməklə saxlanılıb və üzərilərində çoxlu sayda silah, onun komplekt hissələri və döyüş sursatı, o cümlədən piyada əleyhinə minalar aşkar edilərək götürülüb.

İttiham aktının nəticəvi hissəsinin elanını davam etdirən dövlət ittihamçısı Fuad Musayev təcavüzkar müharibə gedişində zorakılıqla yoxa çıxarma, əsir və girov götürülərək işgəncələrə məruz qoyma faktlarını sadalayıb.

Vurğulanıb ki, 1988-2023-cü illərdə Azərbaycanın Qarabağ bölgəsi və ətraf ərazilərində yüzdən çox fərqli-fərqli işgəncə metodları tətbiq edilməklə girov götürülmüş 1284 nəfər dinc mülki sakindən 122 nəfər, əsir götürülmüş 414 nəfər hərbi qulluqçudan 48 nəfər olmaqla ümumilikdə 1698 nəfər əsir və girov götürülmüş şəxslərdən 170 nəfər şəxs saxlanıldığı yerdə işgəncələr və qeyri-insani rəftar tətbiq edilməklə qəsdən öldürülüb, qalan 1528 nəfər şəxs Azərbaycan dövləti tərəfindən beynəlxalq təşkilatlar vasitəsilə görülmüş tədbirlər, eləcə də hərbi əsir və girovların yaxın qohumlarının şəxsi təşəbbüsləri və əlaqələri ilə verilən maddi nemətlər müqabilində azad edilib.

Daha sonra dövlət ittihamçısı Təranə Məmmədova təcavüzkar müharibə gedişatında muzdlu döyüşçülərdən istifadə edilməsi faktlarını elan edib.

Qeyd edilib ki, təcavüzkar müharibəyə hazırlıq məqsədilə Vartanov Vladimir (Vova) Levanoviç yaratdığı "VoMa" adlı terror təşkilatının, habelə Fransa, Livan, Suriya Ərəb respublikaları, Rusiya Federasiyası və digər ölkələrin ermənisilli vətəndaşların və müxtəlif terror təşkilatlarının üzvlərinin Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində silah-sursatlarla təmin edilməklə onlara qanunsuz silahlı hərbi təlimlər keçirilib.

Bundan başqa, "ASALA" terror təşkilatı, "PKK-PYD-YPG" terror təşkilatları, Fransa Respublikasının "Zouaves Paris" (ZVP) qruplaşması, "Daşnaksütyun" partiyasının, "Qara Pantera" hərbi qruplaşmasının və digər təşkilatların üzvləri də daxil olmaqla 2 min nəfərdən artıq xarici ölkə vətəndaşlarının Azərbaycana qarşı başlanılmış təcavüzkar müharibədə daha təcrübəli döyüşçü kimi iştirakını təşkil etmək üçün Ermənistan Respublikasının ərazisindən işğal altında saxlanılan Laçın dəhlizindən istifadə edilməklə Azərbaycan Respublikasının Xankəndi və Şuşa şəhərlərinə, Kəlbəcər, Xocavənd və digər yaşayış məntəqələrinə gəlmələri və Azərbaycana qarşı apardıqları hərbi əməliyyatlarda iştirak etmələri təmin edilib.

Bundan sonra çıxış edən Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarənin şöbə rəisi Nəsir Bayramov təcavüzkar müharibə gedişində ərazilərin minalanması, mina partlayışı yolu ilə təcavüzün davam etdirilməsi faktlarını elan edərək bildirib ki, Azərbaycan Respublikasının işğal olunmuş suveren ərazilərinin 1,1 milyon hektardan artıq sahəsi 1 milyondan artıq tank və piyada əleyhinə minalarla, eləcə də digər partlamamış hərbi sursatlarla çirkləndirilib.

Bundan sonra baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimli təcavüzkar müharibənin davamı kimi işğal olunmuş ərazilərdə ermənisilli mülki şəxslərin qanunsuz məskunlaşdırılması, təcavüzkar müharibə nəticəsində Azərbaycan Respublikasının iqtisadiyyatına ziyan vurulması və işğal olunmuş ərazilərdə terrorçuluğun maliyyələşdirilməsi faktlarını sadalayıb.

Vurğulanıb ki, 1994-cü ilin may ayından 2020-ci ilin sentyabr ayınadək olan dövr ərzində Şuşa, Xankəndi şəhərlərinin, Xocalı, Ağdərə, Xocavənd, Qubadlı, Ağdam, Kəlbəcər və Zəngilan rayonlarının ərazisində, Ermənistan Respublikasından, Suriya Ərəb Respublikasından, Livan Respublikasından, İraq Respublikasından və digər dövlətlərdən köçürülmüş 23 mindən artıq ermənisilli mülki əhali, habelə "ASALA" kimi terror təşkilatının silahlı dəstələrinin üzvlərini və ailələri gətirilərək məqsədyönlü və sistematik şəkildə məskunlaşdırılmaqla etnik tərkibi dəyişdirilərək erməni əhalisinin sayı qanunsuz və əsassız olaraq artırılıb, işğal altında saxlanılan ərazilərdə böyük erməni say tərkibi yaradılıb.

Bununla yanaşı qeyd edilib ki, 1992-2023-cü illər ərzində həyata keçirilmiş qanunsuz iqtisadi fəaliyyətlər nəticəsində Azərbaycan Respublikasına məxsus olmuş sərvətlərin qanunsuz istismar edilməsi hesabına əldə edilən gəlirlər də daxil olmaqla ümumilikdə kənd təsərrüfatı, mineral xammal hasilatı, enerji (hidroenerji) istehsalı, pərakəndə ticarət, ictimai iaşə dövriyyəsinin həcmi, sənaye məhsulunun və digər fəaliyyət sahələri, habelə "Frank Müller Group" şirkətinin qanunsuz fəaliyyəti, qanunsuz balıq kürüsü istehsalı fəaliyyəti və "Artsakhbank" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən aparılmış qanunsuz maliyyə əməliyyatları üzrə cəmi 20.9 milyard manatdan artıq maddi ziyan vurulmaqla əldə edilən qanunsuz gəlirlər terrorçuluğun maliyyələşdirilməsinə xərclənib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev təcavüzkar müharibə gedişində Azərbaycan Respublikasının ekologiyasına ziyan vurulması cinayət faktlarını elan edib.

Bildirilib ki, Azərbaycan Respublikasına qarşı törədilmiş təcavüzkar müharibə nəticəsində 1980-ci illərin sonlarından 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində işğal olunmuş Azərbaycan Respublikasının ərazilərində ağacları, kolları və digər yaşıllıqları məhv etməklə, su mənbələrini, su hövzələrini və su anbarlarını çirkləndirməklə, su ehtiyatlarından istifadəni qəsdən qeyri-mümkün etməklə, eləcə də kənd təsərrüfatı təyinatlı torpaqları dağıtmaqla Azərbaycan Respublikasının ekologiyasına və təbiətə ümumilikdə külli miqdar təşkil edən 13,4 milyard manatdan artıq məbləğdə maddi ziyan vurulub.

İttiham aktının həcminin böyük olması nəzərə alınaraq, elan edilməsinin növbəti prosesdə davam etdiriləcəyi qeyd olunub.

Məhkəmənin baxış iclası fevralın 18-də davam etdiriləcək.

Xatırladaq ki, sözügedən cinayət işi üzrə 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.